Azərbaycanda

# QRİP ƏLEYHİNƏ VAKSİNASİYA

həyata keçirilir



Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyevin "2020-2021-ci ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə" əmrinə əsasən, ölkəmizin bütün şəhər və rayonlarında müəyyən olunmuş əhali qrupları arasında qrip əleyhinə vaksinasiya tədbirləri keçirilir. Bu tədbirlər koronavirus (COVID-19) infeksiyası ilə yanaşı qrip və kəskin respirator xəstəliklərlə epidemik vəziyyətin gərginləşmə ehtimalının minimuma endirilməsi məqsədi daşıyır.

**İlk növbədə tibb işçiləri, hamilə qadınlar və xroniki tənəffüs yolları xəstəliklərinə malik olan 6 aylıqdan yuxarı uşaqlar və böyüklər vaksinasiyaya cəlb ediləcəklər.**

Bu əhali qruplarından olan şəxslər yaşayış yeri üzrə əhaliyə xidmət göstərən ambulator-poliklinik müəssisələrə könüllü müraciət edərək, həkim baxışından keçib heç bir ödəniş etmədən peyvənd vurdura bilərlər.



Vaksinasiya bir ay ərzində həyata keçiriləcək.

**12 oktyabr 2020–12 noyabr 2020**

# Qrip əleyhinə peyvəndin hər hansı yan təsiri varmı?

Qripdən və qripə bağlı fəsadlardan qorunmaq üçün ən effektiv üsul – qrip əleyhinə peyvənd olunmaqdır. Qrip əleyhinə peyvənd bədənin immun sistemini aktivləşdirir və orqanizmi xəstəlik yaratmadan qrip infeksiyasından qoruyur. **Vaksinin tətbiq olunduğu yerdə yüngül ağrı, qızartı və ya azacıq şişkinlikdən başqa heç bir yan təsiri yoxdur.**



# Qrip əleyhinə peyvənd niyə vacibdir?

Payız-qış mövsümündə respirator xəstəliklər, hava-damcı yolu ilə yayılan xəstəliklər çoxalır. Ona görə də hazırda COVID-19 pandemiyasının davam etdiyi müddətdə bu xəstəliklərə qarşı profilaktika tədbirləri aktuallaşır. Əslində qrip əleyhinə vaksinasiya COVID-19 əleyhinə də mübarizənin bir üsuludur və demək olar ki, dünyanın bütün ölkələrində bu gün belə tədbirlər görülür.

# Peyvənd kimlər üçün əks-göstərişdir?

- ✓ Hamiləliyin ilk 3 ayında olan qadınlar;
- ✓ 6 aydan kiçik körpələr;
- ✓ Əvvəllər qrip əleyhinə peyvəndə kəskin allergik reaksiya verən şəxslər;
- ✓ Yüksək temperatur ilə orta-ağır vəziyyətdə olan xəstələr.

# Mövsümi qripə qarşı hər il peyvənd olunmaq lazımdır?

Bəli, çünki əvvəlki qrip peyvəndləri və ya keçirilmiş qrip xəstəliyi qorunma təmin etmir. Qrip peyvəndi peyvənd olunduqdan sonra təxminən 2 həftə ərzində qoruyucu sistem yarananadək öz effektini göstərə bilmir. Bu səbəblə peyvənd qrip yayılmağa başlamazdan əvvəl edilməlidir.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Vərəqə Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanaraq çap edilmişdir.